Qiymət 1 manat



**Bu süfrədə nə artıqdır?**

## FƏRQİ TAP!





**Abunə olmaq üçün!**

**Jurnalımızı əldə etmək üçün bu mətbuat yayımı firmalarına zəng vurun:
"Qaya" (012) 564 48 96; (012) 564 63 45; "Səma" (012) 596 22 97;
"Metro Servis" (012) 434 01 33; "XPress-Elita" (012) 437 28 10;
Mətbuat yayımı (012) 440 46 94.**

# GÖYƏRÇİN

İSSN-0207-4710

9

2019



# Təzə dərs ili

Əziz balalar, təzə dərs ili gəldi. Bu münasibətlə sizi və valideynlərinizi jurnalımızın yaradıcı kollektivi adından təbrik edirik. Təzə dərs ilinin sevinci ürəyinizdən əskik olmasın! Vətənin adına layiq oğullar, qızlar kimi böyümək üçün məktəbdə yaxşı oxumaq, müəllimlərin valideynlərin sözünə qulaq asmaq lazımdır.

Bu gün məktəbdə elə bil ki, toy-bayramdır. Əllərində gül dəstələri məktəbə tələsən uşaqlar elə özləri də gül-çiçəyi xatırladırlar. Onların sevincinin həddi-hüdudu yoxdur. Birincilər birinci zəngin sədasını məktəb himni kimi həmişə yadlarında saxlayacaqlar.

Sizin aranızda elə uşaqlar var ki, ilk dəfədir ki, məktəbə qədəm basırlar. Həyəcandan onların ürəyi əsir. Övladlarını ilk dəfə məktəbə yola salan ata-analar, nəvələrini böyük ümidlə bu müqəddəs təhsil ocağına gətirən babalar və nənələr də özlərini çox xoşbəxt hiss edirlər. Onlar məktəbə yola saldıqları körpə balalardan çox şey gözləyirlər. İstəyirlər ki, övladları elmin yollarında uğurla irəliləsinlər.

Əziz balalar, onu unutmayın ki, vətənin gələcək taleyi sizin əlinizdədir. Unutmayın ki, Azərbaycanın görkəmli dövlət xadimləri, alimləri, şairləri, müəllimləri, həkimləri, mühəndisləri sizin aranızdan çıxacaqdır. Bunun üçün isə yorulmaq bilmədən çalışmalı, oxumalı, öyrənməlisiniz.

Əziz balalar, bilik bayramınız mübarək!



# MAHNI SOVQATI

Söz: Rafiq Yusifoğlu
Musiqi: Rəşid Şəfəq

F. Köçərli adına Respublika Uşaq KİTABXANASI İNV. №

## BİRİNCİ ZƏNG

Həyəcandan gözümə
Yuxu getməyib gecə...
Birinci zəngdən ötrü
Ürəyim əsir necə?!

Qəlbimizdə arzular,
Əlimizdə gül-çiçək.
Yolumuzu gözləyir
Məktəb nəhəng gəmi tək.

Məhəbbətlə izləyir
Bizi doğma baxışlar.
Əl edib yola salır
Qohumlar, dost-tanışlar.

Vuruldu birinci zəng,
Ta bizim nə qəmimiz?
Biliklər ölkəsinə
Yola düşür gəmimiz...

